www.ebi.org.az
№09 (81) 2012

MƏNZİL İNTERYERİ

# ƏMLAK BAZARI

TİKİNTİ · MEMARLIQ · DİZAYN · İNTERYER · ANALİTİKA · ALQI-SATQI · QİYMƏTLƏNDİRMƏ




**Adımız üstün keyfiyyətimizin sübutudur.**
**Qaradağ Sement artıq Holcim oldu.**

Sement istehsalında 100 illik dünya təcrübəsi

Holcim

# Holcim - ənənəvi keyfiyyət və müasir yanaşma

*1912-ci ildə İsveçrədə təsis olunmuş Holcim bu il 100 illiyini qeyd etməkdədir! 2012-ci il Holcim (Azərbaycan) üçün bir sıra əlamətdar hadisələrlə və şirkətin fəaliyyətində yeni dövrün başlanması ilə yadda qalmışdır. İlk olaraq aprel ayında "Qaradağ Sement" ASC-nin adı dəyişilərək Holcim (Azərbaycan) oldu və bununla şirkət beynəlxalq Holcim ailəsinin tamhüquqlu üzvünə çevrilmişdir. Bunun davamı olaraq, iyul ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Holcim Şirkətlər Qrupunun direktoru cənab Bernard Fontana Yeni Quru Üsullu İstehsal Sobasının açılış mərasimində iştirak etdilər. Ümumi dəyəri 300 milyon avro olan bu texnologiyanın tam istismara verilməsi nəticəsində sementin istehsal həcminin 30%-dək artması, yəni illik 1.3 milyon tondan 1.7 milyon tona çatması gözlənilir.*

İnşaat sektorunda daima öz yenilikləri ilə fərqlənən Holcim (Azərbaycan) şirkəti istehsalın müasirləşdirilməsi ilə yanaşı, son illərdə cəmiyyətin inkişafı istiqamətində bir sıra təşəbbüslər həyata keçirir. Bu təşəbbüslər çərçivəsində, şirkət müxtəlif sahələrə aid xüsusi mərkəzlər yaratmışdır.

**Holcim Sement Mərkəzi:** Holcim (Azərbaycan) müştəriyönümlü şirkət olmaq üçün hər



zaman müştərilərin tələb və ehtiyaclarını öyrənir və onlara dəstək verir. Hazırki və potensial müştərilər, yerli və xarici şirkətlərdən mühəndislər və Azərbaycan Memarlıq və İnşaat Universitetinin tələbələri Mərkəzə üzv olmağa dəvət olunur. Mərkəzin üzvləri beton və inşaat məhlulları istehsalı, onların keyfiyyəti və buna təsir edən amillər ilə bağlı müzakirələrdə iştirak etməklə geniş təcrübə qazana bilər.

**Gənclərin İnkişafı Mərkəzi:** Gənclər üçün öyrənmək və rəhbərlik etmək istiqamətində



müxtəlif imkanlar təmin edən bu Mərkəz gənclərin fərdi inkişafına və təhsil səviyyəsinin artmasına təkan verəcəkdir. Burada yeni kitabxana, ingilis dili və kompüter kurslarının təşkili, liderlik, idarəetmə proqramları, həmçinin rəssamlıq və tikiş dərnəklərinin açılması nəzərdə tutulmuşdur.

**Məşğulluq-Məsləhət Mərkəzi:** Bu mərkəz vasitəsilə Sahil qəsəbəsi sakinlərinə məşğulluğa dair məsləhət, vakant iş yerləri haqda məlumatlandırma və onlara sərbəst iş yerlərinə müraciət etməkdə köməklik göstərilməsi xidmətləri həyata keçirilir. Artıq ilk il ərzində Mərkəzin xidmətindən 750-dən çox qəsəbə sakini yararlanmış, 60-dan artıq ailəyə ünvanlı sosial yardım almağa və 90-dan artıq vətəndaşa işə düzəlmədə birbaşa köməklik göstərilmişdir.



Bütün bu təşəbbüslər vasitəsilə Holcim (Azərbaycan) öz missiyasının həyata keçirilməsinə - fəaliyyət göstərdiyi sənayedə qabaqcıl və etibalı şirkət olmağa və bütün maraqlı tərəflər üçün dəyər yaratmağa çalışır.

Dünyanın 70-dən çox ölkəsində fəaliyyət göstərən Holcim şirkətində 80.000 əməkdaş çalışır. Şirkət dünyanın aparıcı sement, doldurucu (qırmadaş, çınqıl və qum), həmçinin hazır beton və asfalt təchizatçısıdır. 2003-cü ildə Holcim Dow Jones Sustainability World Index (Dou Cons Ümumdünya Davamlılıq İndeksinin) üzvü kimi qeydə alınmışdır. Şirkət tikinti materialları sənayesində dünyanın ən qabaqcıl şirkətlərindən biri kimi tanınır. Holcim həmçinin "FTSE4Good Sustainability İndeksi"ndə də sıralanır.













**_Tikinti layihələri üçün həll yolları təchiz edirik_**

Sement istehsalında 100 illik dünya təcrübəsi

Holcim